

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 231 (21.641)

*4 dekabr 2016-cı il, bazar*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 3-də Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Nazir Mövlud Çavuşoğlu Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırıb. Mövlud Çavuşoğlu deyib: "Mən buraya gəlməzdən əvvəl Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla danışdım, dedim ki, cənab Prezident bizi qəbul edəcək. O dedi ki, cənab Prezidentə çoxlu salamlarım var və İlham qardaşımdan soruş, onun bir tapşırığı varmı?"

Türkiyə Prezidentinə möhkəm cansağlığı arzulayan dövlətimizin başçısı deyib: "Bilirsiniz ki, hörmətli Prezidentlə biz çox yaxınıq. Bizi dostluq və qardaşlıq əlaqələri bağlayır". Prezident İlham Əliyev ölkələrimizin müxtəlif nazirliklərinin rəhbərləri arasında da sıx əlaqələrin mövcud olmasından məmnunluğunu ifadə edib.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş edib.

## Yazıçı-publisist və pedaqoq Eynəli bəy Sultanovun 150 illik yubileyi qeyd olunub

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2016-cı il fevralın 15-də "Eynəli bəy Sultanovun 150 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalamışdır. Sərəncama əsasən Tədbirlər Planı təsdiq olunmuş, görkəmli yazıçı-publisist və pedaqoqun yubileyi muxtar respublikada silsilə tədbirlərlə qeyd olunmuşdur.

Dekabrın 3-də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Eynəli bəy Sultanovun 150 illik yubiley tədbiri keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və tədbir iştirakçıları teatrın foyesində Eynəli bəy Sultanovun 150 illik yubileyinə həsr olunmuş sərgiyə baxmışlar.

Sərgidə Eynəli bəy Sultanovun həyat və fəaliyyətinə həsr olunmuş kitablar, qəzet və jurnal materialları, yubiley münasibətilə buraxılmış poçt markası, avtoreferat, görkəmli pedaqoqun həyatının müxtəlif dövrlərinə aid fotoşəkillər, yazıçı-publisistin müxtəlif dövrlərdə yazdığı məqalələr nümayiş etdirilirdi.







Sərgi ilə tanışlıqdan sonra keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yazıçı-publisist və pedaqoq Eynəli bəy Sultanovun anadan olmasının 150 illik yubileyi münasibətilə tədbir iştirakçılarını, muxtar respublikanın bütün yaradıcı ziyalılarını təbrik edərək demişdir: Böyük tarixə və zəngin mədəniyyətə malik olan Naxçıvan torpağı görkəmli sərkərdələr, siyasətçilər, ziyalılar, mütəfəkkirlər, yazıçı və şairlər yetişdirib. Onlardan biri də yazıçı-publisist və pedaqoq Eynəli bəy Sultanovdur. Eynəli bəy Sultanovun fədakar ziyalı fəaliyyəti ictimai və milli fikir tariximizdə mühüm mərhələ təşkil edir. 150 il bundan əvvəl, 1866-cı ildə Naxçıvan şəhərində anadan olan Eynəli bəy Sultanov ilk təhsilini Naxçıvan qəza məktəbində almış, sonra isə "İrəvan kişi gimnaziyası"nda oxumuşdur. Burada Avropa ədəbiyyatını və Qərb maarifçiliyini dərindən öyrənən Eynəli bəy Sultanova şəhər ibtidai məktəblərində müəllimlik hüququ verilmişdir.

Qeyd olunmuşdur ki, quberniya dəftərxanasında çalışaraq hüquq sahəsində təcrübə qazanan Eynəli bəy Sultanov 1893-cü ildən 1903-cü ilə qədər məhkəmə və prokurorluq orqanlarında fəaliyyət göstərmiş, dairə məhkəməsi prokurorunun köməkçisi olmuşdur. Lakin bütün bunlar ona geniş mənada təmsil etdiyi xalqına xidmət imkanları yaratmırdı. Bu əqidə ilə də həyatını "müqəddəs müəllimlik sənətinə həsr edən" Eynəli bəy Sultanov Naxçıvanın təhsil görmüş tərəqqipərvər gənclərini ətrafına toplayaraq öz evində ədəbi məclislər düzəltmiş, oxuduğu kitablar, rus və Avropa yazıçılarının həyat və fəaliyyətləri barədə söhbətlər aparmış, dövrün ictimai-siyasi məsələlərini müzakirəyə çıxarmışdı.

Bu, elə bir dövr idi ki, savadsız əhalinin yeniliklərə qarşı olmalarına baxmayaraq, Eynəli bəy Sultanov xalqının maariflənməsi uğrunda çalışır və deyirdi ki, müəllim həqiqi xalq müəllimi olmalı, xalqı sevməli və xalq tərəfindən sevilməlidir. O, bütün həyatı boyu müəllimlik missiyasına sadiq qalmış, Azərbaycanın görkəmli yazıçı və publisistlərinin, mütərəqqi ziyalılar dəstəsinin ilk müəllimi və tərbiyəçisi kimi şöhrət qazanmışdır. Eynəli bəy Sultanov hələ gimnaziyada oxuyarkən Naxçıvanda maarifçi mühitin formalaşmasında yaxından iştirak etmiş, qabaqcıl ziyalıları öz ətrafında toplayaraq 1882-1883-cü illərdə "Ziyalı məclisi", "Müsəlman dram incəsənəti cəmiyyəti" kimi ədəbi-mədəni mərkəzlər yaratmışdır. O dövrün yeniyetmə və gəncləri üçün bu mərkəzlər, sözün həqiqi mənasında, məktəb rolunu oynamışdır. Bununla yanaşı, Eynəli bəy Sultanov "Ziyalı məclisi" üzvlərinin köməyi ilə Naxçıvanda ilk mətbəə və kitabxana da yaratmışdır.

Ali Məclisin Sədri demişdir: Maarifçilik işində teatrın mühüm funksiya daşıdığını vurğulayan Eynəli bəy Sultanov 1883-cü ildə Naxçıvan teatrının yaranmasında yaxından iştirak etmiş, rejissor kimi bəzi tamaşalara quruluş vermiş, hətta aktyorluq da etmişdir. Ədəbi-bədii fəaliyyətinin Tiflis dövründə də Azərbaycan teatrının inkişafı üçün çalışan Eynəli bəy Sultanov Azərbaycan teatr tənqidinin əsasını qoyanlardan biri kimi müxtəlif tamaşalara resenziyalar yazmış, ayrı-ayrı aktyorlar haqqında məqalələr çap etdirmişdir. Publisist kimi də tanınan Eynəli bəy Sultanov on doqquzuncu əsrin 80-ci illərindən başlayaraq mətbuat orqanları ilə əməkdaşlıq etmiş, qəzet, jurnal və məcmuələrdə çap olunan publisistik materiallarla xalqı oyatmağa səy göstərmiş, "Kaspi" qəzetinin İrəvan və Naxçıvan üzrə xüsusi müxbiri olmuşdur. Eynəli bəy Sultanovun məqalələrində maarif, mədəniyyət, qadın azadlığı və hüquq bərabərliyi məsələləri öz geniş əksini tapmışdır.

Bildirilmişdir ki, Qarsda, İrəvanda və Tiflisdə müxtəlif vəzifələrdə, o cümlədən "Tiflis Müsəlman Xeyriyyə Cəmiyyəti"ndə və Zaqafqaziya Maliyyə Komissarlığında işləyən Eynəli bəy Sultanov ictimai xadim kimi də tanınmışdır. O, Azərbaycanda latın qrafikalı əlifbaya keçid sahəsində təşəbbüslər etmiş, 1924-cü ildə Yeni Əlifba Komitəsi Tiflis şöbəsinin katibi kimi səmərəli fəaliyyət göstərmişdir. Ədəbi yaradıcılıqla da məşğul olan Eynəli bəy Sultanov məhsuldar işləmiş, hekayə və dramlar, şeirlər yazmışdır. Onun sadə azərbaycanlıların həyatı ilə sıx bağlı olan əsərləri xalq həyatının bədii ifadəsidir. "Mən ədib deyiləm, ancaq ədəbiyyat maraqlısıyam" deyən Eynəli bəy Sultanov istedadlı ədib, publisist və pedaqoq kimi xalqımızın maariflənməsində, mədəni inkişafında mühüm rol oynamış, ədəbiyyatda realizmin və vətəndaş fəallığının müdafiəçisi kimi çıxış etmişdir.

"Bədii və publisistik yaradıcılıqla bərabər, ilk dəfə folklor nümunələrimizin toplanması ilə də məşğul olan Eynəli bəy Sultanov Naxçıvanda üç minə qədər atalar sözü toplamışdır.

*Ardı 2-ci səhifədə*

Elə təkcə bu faktın özü Eynəli bəy Sultanovun öz xalqına, xalqının keçmişinə, zəngin söz yaddaşına və adət-ənənəsinə nə qədər bağlı olduğuna nümunədir", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, təhsil illərində rus və fransız dillərini öyrənən Eynəli bəy Sultanov tərcümə sahəsində də səmərəli fəaliyyət göstərmiş, müxtəlif xalqların qabaqcıl ədəbi nümunələrini Azərbaycan dilinə, Azərbaycan yazıçılarının əsərlərini isə rus dilinə tərcümə etmiş, bu yolla ədəbi irsimizin təbliğinə və zənginləşməsinə öz töhfəsini vermişdir. Eynəli bəy Sultanovun bütün ədəbi və maarifçi-ictimai fəaliyyəti bir müqəddəs amala – xalqın savadlanmasına, işıqlı gələcəyinə, inkişaf və tərəqqisinə xidmət edirdi. O, Azərbaycan xalqına müraciətlə yazırdı ki, "Mən səni sevirəm, mənim xalqım! Mən inanıram, sənin irəliyə doğru hərəkətini ləngidən hər cür buxovlardan azad olacağın vaxt uzaqda deyil". Xalqının maariflənməsində xidmətləri olan Eynəli bəy Sultanov kimi şəxsiyyətlər xalqımızın yaddaşında daim yaşayacaqlar.

Tədbirin aparıcıları Eynəli bəy Sultanovun "Dan ulduzu" jurnalında çap olunmuş "El ədəbiyyatı" məqaləsini və "Günəşin qasidi" şeirini, "Zaqafqaziya" qəzetində dərc olunmuş "Müsəlmanlar arasında ifşaedici məktublar" silsiləsindən olan məqalələrindən, "Naxçıvan şəhərində kişi gimnaziyası açmaq haqqında", "Naxçıvan məktubları"ndan, "Azərbaycan ziyalıları haqqında" və "Son söz" məqalələrindən parçaları oxumuş, görkəmli ziyalının Azərbaycan xalqının gələcəyinə olan inamını ifadə edən fikirlərini, jurnalist Səbuhi Hüseynovun "Eynəli bəyə məktub" məqaləsini tədbir iştirakçılarının diqqətinə çatdırmışlar.

Sonra tədbir iştirakçıları Naxçıvan Dövlət Televiziyasının Eynəli bəy Sultanovun 150 illik yubileyi münasibətilə hazırladığı "Onun həyat amalı" televiziya filminə baxmışlar.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Onun həyat amalı...

### *Eynəli bəy Sultanovun 150 illik yubileyi münasibətilə*

*Zaman zülmət içində, hər tərəf alatoran,*
*Nur gəzdirən sözləri boğur cəhalət xofu.*
*Kimdi bu qaranlıqda bir işartı axtaran?*
*Kimdi ümidlə baxan, yoxmu canında qorxu?*

*Onlar birdi, ikidi, üçdü, uzağı beşdi,*
*Şam kimi əridirlər canlarının yağını.*
*Onların gəlişiylə cəmiyyət də dəyişdi,*
*Başladı bir millətdə mədəniyyət axını.*

*Naxçıvanda böyüyüb boya-başa çatanlar*
*Bu axının ən öndə gedənləri oldular.*
*Qəflət, zülmət, ətalət qucağında yatanlar*
*Oyandılar, qalxdılar, cərgələrə doldular.*

*Sidqi, Məhəmmədağa, Eynəli, Cəlil, Cavid,*
*Şərifzadə, Qəmküsar, Bəhruz və Ordubadi.*
*Hər biri mədəniyyət cəbhəsində bir igid,*
*Hər biri qaranlığı aydınladan nur idi.*

*...Əynində qara frak, şlyapası başında,*
*Asta-asta yeriyir, düşünür aram-aram.*
*Qəti qərara gəlir düz on yeddi yaşında*
*Gərək Naxçıvanda da dram cəmiyyəti yaradam.*

*Yorulmadan, qorxmadan toplayır ətrafına*
*Özü kimi ziyalı dostları, tanışları.*
*Nə qədər müqavimət göstərsələr də ona,*
*Düyünlənmir, dolaşmır alnının qırışları.*

*Dram dərnəyi qurur, gizli mətbəə yaradır,*
*Kitabxana da açır millət oxusun deyə.*
*Hər kəsə kömək olur, daim dadına çatır,*
*Hər vaxt ümidlə baxır sabaha, gələcəyə.*

*Paylayır kəndlilərə bütün torpaqlarını,*
*O bu cür payladıqca dövlətini, varını*
*Onu dəli sanırlar, deyirlər ki, "Dəli"di.*
*Onlar bu cür düşünür: bu adam ölməlidi...*

*Məcburən Naxçıvandan ayrılıb Qarsa gedir,*
*Türk yurdu İrəvana üz tutur iş dalınca.*
*Getdiyi hər tərəfdə xalqına xidmət edir,*
*Gecə-gündüz hey yazır arzusu, amalınca.*

*Haqq işi sorağında Tiflisdə məskən salır,*
*Təkcə bir diləyi var, xalqını xoşbəxt görmək.*
*Orda da xalqı üçün fədakarca çalışır,*
*Arzuladığı ancaq işıqlı bir gələcək.*

*Həyat amalı buydu: millətlər arasında*
*İmzasını ataydı onun doğma milləti,*
*Ruhu indi xoşbəxtdir, əsrlər sonrasında*
*Müstəqil, qüdrətlidir Azərbaycan dövləti.*

*Zülmət qaranlıqları aydınlatmaq arzusu,*
*Qığılcımdan başladı, böyüyüb oldu alov.*
*Bu gün bizdə vardısa ziyalılar ordusu,*
*Deməli, aramızdadır Eynəli bəy Sultanov.*

**Elxan YURDOĞLU**

***Eynəli bəy Sultanov Naxçıvanda ilk kitabxananı yaratdı***



*M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanası*

***O, Naxçıvanda teatrın əsasını qoyanlardan biridir***



*Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı*

***Eynəli bəy Sultanov Naxçıvanda ilk mətbəəni yaratdı***





*Naxçıvanda müasir redaksiya-nəşriyyat kompleksi*



*Eynəli bəy Sultanov Naxçıvanda maarifçiliyin inkişafı sahəsində misilsiz xidmətlər göstərib. Maarif fədaisinin ən böyük arzusu xalqını oxumuş görmək idi. Ömrünü xalqının maariflənməsi yolunda şam kimi əridən insanın arzuları yerinə yetib, indi Naxçıvanda təhsilə cəlb olunmayan uşaq yoxdur, hər kənddə, hər şəhərdə müasir məktəblər istifadəyə verilib.*

*Qədirbilən naxçıvanlılar Eynəli bəyin xatirəsini əziz tuturlar. Təsadüfi deyil ki, hazırda Naxçıvan şəhərindəki 7 nömrəli tam orta məktəb bu şəhərdə maarifçi mühitin formalaşması üçün böyük fədakarlıqlar göstərmiş Eynəli bəy Sultanovun adını daşıyır.*

*Eynəli bəy Sultanovun adını daşıyan məktəbdə hər bir müəllimin fəaliyyətində, hər bir şagirdin oxumağa, öyrənməyə həvəs göstərməsində Eynəli bəy irsinə sonsuz hörməti və məhəbbəti hiss etməmək, duymamaq mümkünsüzdür.*

# Muzey ziyarətləri davam etdirilir

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" Sərəncamına uyğun olaraq, muxtar respublikada dövlət orqanları işçilərinin muzeylərə kollektiv gedişi təmin edilib.***



Dekabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin kollektivləri Naxçıvan Dövlət Rəsm Qalereyasında olublar.

Məlumat verilib ki, Naxçıvan Dövlət Rəsm Qalereyası 1982-ci ildə Naxçıvan şəhərində açılıb. Burada Azərbaycanın görkəmli təsviri sənət ustalarının əsərləri mühafizə olunur, təbliğ və nümayiş etdirilir. Ekspozisiyada Bəhruz Kəngərlinin, Xalq rəssamları Mikayıl Abdullayev, Tahir Salahov, Oqtay Sadıqzadə, Maral Rəhmanzadə, Toğrul Nərimanbəyov, Elmira Şahtaxtinskaya, yerli rəssamlardan Hüseynqulu Əliyev, Şəmil Mustafayev və başqalarının boyakarlıq, qrafika, tematik tablo, portret və sair janrlarda yaratdıqları əsərlər əsas yer tutur. Son illərdə muxtar respublikada keçirilən beynəlxalq rəsm sərgilərində iştirak edən xarici ölkə rəssamlarının əsərləri də qalereyada özünə yer alıb. Qalereyaya gələnlərə buradakı rəsm əsərlərinin müəlliflərinin yaradıcılıqları barədə ətraflı məlumat verilir.

Bildirilib ki, qalereya Azərbaycanın müxtəlif şəhərlərində və İran İslam Respublikasında sərgilər təşkil edib.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kollektivləri də Naxçıvan Dövlət Rəsm Qalereyasında olublar.

Həmin gün Naxçıvan Muxtar Respublikası Dövlət Energetika, Dövlət Baş Sığorta agentliklərinin və Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin kollektivləri Cəlil Məmmədquluzadənin ev-muzeyini ziyarət ediblər.

Məlumat verilib ki, muzey 1998-ci ildə, Naxçıvan şəhərində Cəlil Məmmədquluzadənin doğulduğu, uşaqlıq və gənclik illərini keçirdiyi evdə yaradılıb, 1999-cu ildə açılışı olub. Muzeydə böyük ədibin həyat və yaradıcılığına aid eksponatlar nümayiş etdirilir. Cəlil Məmmədquluzadə və onun ailəsinə məxsus şəxsi məişət əşyaları, o cümlədən yazıçının əsərləri, onun müasirlərinə aid sənədlər də muzeyin eksponatları sırasındadır.

**Xəbərlər şöbəsi**



***Qalxım Qalacığa - üzü yuxarı,***
***İzin ver, tamaşa edim bu yurda.***
***Qarabağlar-mənim sirli keçmişim,***
***İnsan qucaqlaşır tarixlə burda.***

***Tanrıya açılan bir cüt əl kimi,***
***Ucalır göylərə qoşa minarə.***
***Rəbbin təkliyinə şahadət verir,***
***Qudinin türbəsi gör neçə kərə.***

***Bura yurd yeridir Bəydililərin,***
***Ordasa bir el var Turabxanlılar.***
***Çığalı, Ağhəsən, Almədətlilər,***
***Daha bir məhəllə Süleymanlılar.***

***Bura Daşməhəllə adlanan məkan,***
***Bu, kəndin yeddinci məhəlləsidir.***
***Yenə şəhərləşən Qarabağlarım,***
***Hülakü dövrünün nişanəsidir.***

# Tarixi-coğrafi Qarabağlar





Bəli, hər daşı, hər qayası ilə bir tarixdir Qarabağlar. Səməd Vurğunun dili ilə desək, burada hər saxsı parçası öz üzərində yurdumuzun ulu tarixinin izlərini daşıyır. Bu gün öz tarixinin ikinci tərəqqi və şəhərləşmə dövrünü yaşayan Qarabağlar təkcə Qarabağlar Türbə Kompleksi ilə deyil, orta əsrlərdə Şərq İslam dünyasının ən böyük şəhərlərindən biri olması ilə qürur duya bilər. Tarixi mənbələrdə Qarabağlar həm də Naxçıvanın tərkibində ayrıca bir sultanlıq, nahiyə, mahal kimi xatırlanmışdır.

Qarabağların yerləşdiyi təbii-coğrafi, eyni zamanda strateji mövqe hələ qədim dövrlərdən burada insanların məskunlaşmasına əlverişli şərait yaratmışdır. Dağətəyi ərazidə yerləşən kəndin şimalında "Qalacıq" adlanan ərazidə Son Tunc, İlk Dəmir dövrlərinə aid yaşayış məskəninin aşkarlanması Qarabağların Naxçıvanda türk dövlətlərindən birinin yarandığı ərazi olduğunu ehtimal etməyə əsas verir. Arxeoloqlar tərəfindən burada aşkarlanmış yaşayış binaları və qala divarlarının qalınlığı tikinti texnikasının hələ o zaman yüksək səviyyədə olduğundan xəbər verir.

Deməli, Qarabağlar ərazisinin tarixi-coğrafiyasından bəhs edərkən burada məskunlaşmanın ilkin koordinatlarını kəndin şimal-şərqindəki təpəlikdə yerləşən 40 hektarlıq ərazi ilə təyin edə bilərik. Bura dəniz səviyyəsindən, təqribən, 1280 metr yüksəklikdədir. Naxçıvan ərazisində ən qədim yaşayış məskəni olan Qazma mağarasının yerləşdiyi Tənənəm kəndinin Qarabağlar kəndindən şimal-qərb istiqamətdə olduğunu nəzərə alsaq, Qazma-Qarabağlar xəttini Naxçıvan ərazisindəki ən qədim tayfaların yaşayış areallarından biri hesab etmək olar.

Müasir Qarabağlar kəndinin yerləşdiyi ərazidə isə məskunlaşmanın tarixi, əsasən, orta əsrlərə aiddir. Qarabağların tarixinə diqqət yetirsək, bu ərazinin, xüsusilə XII-XVII əsrlərdə bölgənin əsas mərkəzlərindən biri kimi önəmli bir statusa sahib olduğunu söyləyə bilərik. Qarabağlar şəhərinin əsasının nə zaman qoyulması barədə yazılı qaynaqlarda verilən məlumatlar da məhz XII əsri işarə etməkdədir.

Türk səyyahı Övliya Çələbinin "Bu şəhərin özülünü Mənüçöhr qoyub" fikrinə əsaslanan bir sıra tədqiqatçılar Qarabağlar şəhərinin əsasının XII əsrdə Şirvanşah Mənüçöhr tərəfindən qoyulduğu fikrini irəli sürmüşlər. Lakin bu fikrin nə qədər həqiqətə uyğun olub-olmadığı hələlik digər mənbələr tərəfindən təsdiqlənməmişdir.

Qarabağların şəhər kimi formalaşması və inkişaf dövrü isə Hülakülər dövlətinin dönəminə təsadüf edir. Dövrün mənbələrində Naxçıvan tüməninin tərkibinə aid olan Naxçıvan, Əncan, Ordubad, Azad, Makuya, Dəbil, Sürməli, Qarabağlar şəhərlərinin adı çəkilmişdir. Qarabağlar kəndi ətrafında yerləşən ərazilərdəki oykonimlər də (Qıvraq, Yurdçu və sair) ərazidə Hülakülər dövründə sürətli məskunlaşmanın olduğunu sübut edir. Qarabağlar ərazisində bu günə qədər qorunub saxlanılan Qarabağlar türbəsi də məhz Hülakülər dövründə tikilmişdir. XIX əsrdə bu kənddə olmuş V.M.Sısoyev Qarabağlar türbəsinin son Hülakülər – ilk Teymurilər dönəmində tikildiyini yazmış, portalbaştağ çərçivələrinin isə XIV əsr memarlığına uyğun olduğunu göstərmişdir. Abidənin üzərində Hülakü hökmdarı Əhməd Təkudərin anası Cahan Qudi xatının adının həkk olunması bu dövrdə Qarabağlar və ətraf ərazilərdə ciddi quruculuq işlərinin aparıldığını, Marağa, Təbriz və Sultaniyə ilə yanaşı, Qarabağların da Hülakülər dövlətinin əsas siyasi mərkəzlərindən biri olduğunu ehtimal etməyimizə imkan verir. Əmir Teymurun Qarabağlarda böyük bir qoşun ilə beş ay qışlaması da bu şəhərin ciddi əhəmiyyətindən xəbər verir.

Öz inkişafının zirvəsinə XIII-XIV əsrlərdə çatmış Qarabağlar şəhəri XVI əsrdə dağıntılara məruz qalsa da, şəhər və bölgə mərkəzi kimi statusunu itirməmişdir.

Haydar Çələbinin "Ruznamə"sində verdiyi məlumatdan aydın olur ki, XVI əsrin ilk dekadasının sonlarında Qarabağlar əksər hissəsi xarabalıqlardan ibarət olan kiçik bir şəhər statusunda idi. Haydar Çələbi "Ruznamə"sində yazır: "1 Şaban 920 (22 sentyabr 1514). Xaraba bir kiçik şəhər olan Qarabağlar yaxınlığında məskən salındı". I Osmanlı idarəçiliyi dövründə (1587-1603) şəhər diqqətsizlik ucbatından nisbətən tənəzzülə uğramış və hətta 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə kənd kimi qeyd edilmişdir.

Türk səyyahı Ö.Çələbinin nisbətən sonrakı dövrə aid qeydlərindən isə aydın olur ki, XVII əsrdə bu şəhər xeyli böyümüş və abadlaşmışdır. Ö.Çələbi çox abad və münbit torpağı olan Qarabağlarda bu dövrdə 10 minə yaxın ev, 40-a yaxın məscid, çoxsaylı karvansara və bazarın olduğunu göstərmişdir. Bu faktlara əsaslanan bəzi tədqiqatçılar dövrün Qarabağlar şəhərinin hətta, təqribən, Naxçıvan şəhəri ilə eyni böyüklükdə olan bir şəhər olduğunu yazmışlar. Bu dövrdə Qarabağlar şəhərinin sürətlə böyüyüb inkişaf etdiyi şəksiz olsa da, onun Naxçıvanla eyni böyüklükdə olması mülahizəsi inandırıcı görünmür.

Əvvəlki əsrlərdə bölgənin inkişaf etmiş şəhərlərindən biri kimi xatırlanan Qarabağlar XVIII əsrin 20-30-cu illərinə aid Osmanlı mənbələrində Qarabağ kəndi kimi qeydə alınmışdır.

### *Qarabağların inzibati statusları: sultanlıq, nahiyə, sovetlik*

Tədqiqatlarımız göstərir ki, Azərbaycan bəylərbəyliyi dövründə Naxçıvan ölkəsinin tərkibində 12 nahiyə və bir sultanlıq var idi. Bu dövrdə Naxçıvan ölkəsinin tərkibində Naxçıvan, Şərur, Dərələyəz, Bazarçayı, Məvaziyi-Xatın, Mülki-Arslan, Dərəşahbuz, Əlincə, Sisəcan, Azadciran, Şorlut, Dərəşam nahiyələri olmuşdur. Qarabağlar ərazisi isə Naxçıvan ölkəsi tərkibində sultanlıq idi.

Birinci Osmanlı idarəçiliyi dövründə Qarabağlar sultanlığı Naxçıvan sancağının bir nahiyəsinə çevrilmişdir. Bu dövrdə Qarabağ nahiyəsi 6 kənd (Qarabağlar, Çınıq (Bakaul), Xök (Əhmədağa dizəsi), Səng, Qıvraq, Sus kəndləri) və 2 məzrəədən (Fazilqışlağı və Əlixangüney məzrəələri) ibarət idi. Nahiyənin ərazisi, təqribən, 467 kvadratkilometrə çatırdı. Şimaldan İrəvan sancağı və Məvaziyi-Xatın nahiyəsi, şərqdən Mülki-Arslan və Naxçıvan nahiyələri, cənubdan Təbriz əyaləti, qərbdən isə Şərur qəzasının Şərur nahiyəsi ilə həmsərhəd idi.

XVII əsrin əvvəllərində Naxçıvan ərazisində öz qanuni hakimiyyətlərini bərpa edən Səfəvilər Qarabağların sultanlıq statusunu özünə qaytarmışlar. Övliya Çələbinin məlumatları sübut edir ki, XVII əsrin 40-50-ci illərində Naxçıvan sancağının (tüməninin) tərkibində Qarabağlar ərazisi xüsusi status daşıyan bir sultanlıq olmuşdur. Bəzi tədqiqatçılar Qarabağların sultanlıq deyil, nahiyə olması fikri üzərində dayansalar da, bizim fikrimizcə, Qarabağlar nahiyə deyil, xüsusi statuslu bir sultanlıq olmuşdur. Əgər belə olmasa, Ö.Çələbi bu ərazini də digər nahiyələr kimi qeyd edər və Qarabağların sultanlıq olduğunu vurğulamağa ehtiyac duymazdı.

Hesablamalarımız göstərir ki, bu dövrdə Qarabağlar sultanlığının ərazisi, təqribən, 443 kvadratkilometr olmuşdur. Sultanlıq şimaldan Məvaziyi-Xatın, qərbdən Naxçıvan nahiyəsi, cənubdan Maku hakimliyi, qərbdən Şərur nahiyəsi ilə həmsərhəd idi.

XVIII əsrin I yarısında Qarabağlar yenə də Naxçıvan sancağının tərkibində nahiyə statusunda olmuşdur.

XIX əsrdə isə Qarabağlar İrəvan quberniyası, Naxçıvan qəzası, Əliabad şöbəsi, Xok kənd cəmiyyəti tərkibinə daxil olan bir kənd idi. Bunu 14 may-17 dekabr 1886-cı ildə ailələr üzrə aparılmış kameral siyahıyaalmanın sənədləri də təsdiqləyir.

Sovetlər dönəmində isə Qarabağlar kəndi Yurdçu ilə birlikdə bir sovetlik statusu daşımışdır.

### *Oğuz yurdu Qarabağlar*

Qarabağlar tarixən Oğuz yurdu olmuş, bu kənd öz adını Naxçıvanın avtoxton tayfalarından biri olan Kəngərlilərin Qarabağlar qolunun adından almışdır. Bunu orta əsr mənbələrinin verdiyi məlumatlar təsdiq edir. Bir zamanlar 50 min nəfər əhalinin yaşadığı, 10 minə qədər evin mövcud olduğu bu şəhər Yaxın Şərqin həm də ən gözəl müsəlman şəhərlərindən biri olmuşdur. Təsadüfi deyildir ki, türk səyyahı Övliya Çələbi XVII əsrdə Qarabağlar şəhərində 70 mehrab, o cümlədən 40 came olduğunu yazmışdır.

Qarabağlar əhalisi həm də bölgədə özünün qonaqpərvərliyi ilə tarix boyunca seçilmişdir. Bunu biz tarixi mənbələrdən oxumaqla yanaşı, həm də müxtəlif dövrlərdə bu kəndə səfərlərimiz zamanı görmüşük. Övliya Çələbinin qeydlərindən aydın olur ki, səyyah bu şəhərdə olarkən o, çox böyük qonaqpərvərliklə qarşılanmış, səyyaha İrəvan düyüsündən plov, müxtəlif çeşidli təamlar və meyvələr təqdim edilmişdir. Səyyah göstərir ki, onlara təkcə armudun 25 növü gətirilmişdi.

### *Qarabağlar bu gün*

Bu gün 6000 nəfərdən çox əhalinin yaşadığı Qarabağlar şəhərləşməkdə olan kənd yaşayış məntəqələrindən biridir. Kənddə iki orta məktəb, kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası fəaliyyət göstərir.

Bu gün Qarabağlarda yeni evlər tikilir, yeni-yeni məhəllələr salınır. Bəydililər (Qalacıq ərazisindən bu əraziyə köçənlərin nəsilləri), Turabxanlılar, Süleymanlılar, Çığalılar, Ağahəsənlilər, Almədətlilər, Daşməhəllə kimi qədim məhəllələrin hər biri isə bir tarixi dönəmin izlərini özündə yaşatmaqdadır.

***Bu gün Qarabağlar muxtar respublikamızın quruculuq ünvanlarından biridir. Burada təkcə müasir infrastrukturun qorunması yox, həm də tarixin bu günə yadigarları olan abidələrin qorunması və bərpası önəmli məsələlərdəndir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 4 iyul 2016-cı il tarixli "Qarabağlar Türbə Kompleksinin bərpası və tədqiq olunması haqqında" Sərəncamı da tarixi keçmişimizə sahiblik duyğusunun möhkəmləndirilməsi istiqamətində atılmış növbəti addımlardan biridir.***

**Elnur KƏLBİZADƏ**

## Beynəlxalq Əlillər Günü qeyd olunub

*Məhdud fiziki imkanlı şəxslərin hüquqlarının qorunmasına, onların sosial müdafiəsinin təmin olunmasına ictimaiyyətin diqqətini cəlb etmək məqsədilə Birləşmiş Millətlər Təşkilatının 14 oktyabr 1992-ci il tarixli qərarı ilə hər il dekabrın 3-ü Beynəlxalq Əlillər Günü kimi qeyd olunur. Bu münasibətlə dünən Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan şəhərində və rayon mərkəzlərində sağlamlıq imkanları məhdud şəxslərin iştirakı ilə tədbirlər keçirilib.*

Naxçıvan Əlillərin Bərpa Mərkəzində keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Qadir Əliyev çıxış edərək vurğulayıb ki, ölkəmizdə məhdud fiziki imkanlı şəxslərin sosial müdafiəsi ilə bağlı həyata keçirilən tədbirlər ötən əsrin 70-ci illərindən başlayaraq daha geniş vüsət alıb. Ümummilli liderimiz Heydər Əliyev belə şəxslərin cəmiyyətə inteqrasiyasını, onların reabilitasiyası və sosial müdafiəsinin təmin olunmasını daim diqqət mərkəzində saxlayır, əlilliyin qarşısının alınması istiqamətində ölkəmizdə mühüm tədbirlər həyata keçirirdi. Ulu öndər bu kateqoriyadan olan insanların problemlərinə daim böyük həssaslıqla yanaşır, əlillərin, müharibə veteranlarının, şəhid ailələrinin mənzil şəraitinin yaxşılaşdırılmasına ciddi önəm verirdi. Ümummilli liderimizin ideyalarını bütün sahələrdə uğurla davam etdirən dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə bu gün ölkəmizdə sosial qayğıya ehtiyacı olan vətəndaşların, o cümlədən məhdud fiziki imkanlı şəxslərin sosial müdafiəsinin gücləndirilməsi, onların cəmiyyətə inteqrasiyası istiqamətində ardıcıl tədbirlər görülür.

Qeyd edilib ki, muxtar respublikada məhdud fiziki imkanlı şəxslər dövlətimizin hərtərəfli qayğısı ilə əhatə olunublar. Bu ilin ötən dövründə məhdud fiziki imkanlı şəxslərin tibbi reabilitasiyası məqsədilə Naxçıvan Əlillərin Bərpa Mərkəzində 244 nəfərin, Naxçıvan Uşaq Bərpa Mərkəzində 315 uşağın müalicəsi təşkil edilib, məhdud fiziki imkanlı 11 nəfər, o cümlədən sağlamlıq imkanları məhdud 5 uşaq valideynlərinin müşayiəti ilə Türkiyə Respublikasına müalicəyə göndərilib. Bundan başqa, 308 nəfər respublikanın müxtəlif sanatoriyalarına göndərişlərlə təmin edilib, sağlamlıq imkanları məhdud 205 şəxsə müxtəlif texniki reabilitasiya vasitələri verilib, 201 vətəndaşa səyyari protez-ortopedik xidmət göstərilib, 61 nəfərin sosial məişət şəraitinin yaxşılaşmasına, 47 nəfərin isə respublika daxilində müalicəsinə köməklik edilib.



Bildirilib ki, hazırda sağlamlıq imkanları məhdud 71 şəxsə evlərində sosial məişət xidməti göstərilməsi, onların zəruri sosial problemlərinin həlli və vaxtaşırı tibbi müayinədən keçmələri, bu il 6 Azərbaycan Vətən Müharibəsi iştirakçısı və 4 şəhid ailəsinə yeni mənzillər və 2 Azərbaycan Vətən Müharibəsi iştirakçısına "Naz-Lifan 320" markalı minik avtomobillərinin verilməsi də dövlətin bu kateqoriyadan olan insanlara qayğısının göstəricisidir.

Həmin gün muxtar respublikanın rayon mərkəzlərində də Beynəlxalq Əlillər Günü münasibətilə tədbirlər keçirilib. Tədbirlərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və rayon icra hakimiyyətlərinin nümayəndələri çıxış edərək məhdud fiziki imkanlı şəxslərin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə həyata keçirilən tədbirlərdən danışıblar.

Tədbirlərdə, ümumilikdə, məhdud fiziki imkanlı 1000 şəxsə sovqat təqdim olunub.

Görüşlərdə iştirak edə bilməyən məhdud fiziki imkanlı şəxslərə evlərində baş çəkilib, onlara sovqat verilib.

Məhdud fiziki imkanlı şəxslər göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

**Hafizə ƏLİYEVA**

## Məktəblərdə *"Kitab bilik mənbəyidir"* adlı sərgilər təşkil edilib



***Artıq bir neçə ildir ki, muxtar respublikada ümumtəhsil məktəbləri şagirdlərinin mütaliə vərdişlərinin təkmilləşdirilməsi və onlarda mütaliə mədəniyyətinin formalaşdırılması üçün silsilə tədbirlər həyata keçirilir, məktəb kitabxanalarının kitab fondu zənginləşdirilir, bu kitabxanaların müasir texnologiyalarla təchizatı diqqət mərkəzində saxlanılır, müsabiqələr, viktorinalar təşkil edilir.***

Bu tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən şagirdlərin kitaba marağının artırılması məqsədilə "Kitab bilik mənbəyidir" devizi altında yeni layihəyə start verilib. Layihənin əsas məqsədi kitabxanalara oxucu cəlbinin artırılmasına, kitaba marağın yüksəldilməsinə və kitab oxumanın kütləviliyinə nail olunmasıdır. Bunun üçün təhsil müəssisələrində sərgilər təşkil edilib, fəal oxucuların, kitabxana işinin təşkilində fərqlənən məktəb və kitabxanaçıların mükafatlandırılması nəzərdə tutulub.





Ötən gün Naxçıvan şəhərinin bir neçə məktəbində olduq, "Kitab bilik mənbəyidir" devizi altında təşkil edilən sərgilərə məktəblilərin böyük maraq göstərməsinə şahidlik etdik. İlk baş çəkdiyimiz təhsil ocağı Naxçıvan şəhər 4 nömrəli tam orta məktəb oldu. Burada təşkil edilən sərgidə aşağı sinif şagirdləri Hüseyn Mahmudovun, Özləm Hacıyevanın, Samir Bağırzadənin tənəffüs dəqiqələrində sərgidəki kitablarla maraqlandığını gördük. Onlar kitabları səhifələyir, özləri üçün maraqlı olan hissələri oxuyurdular.

Məktəbin direktoru Cəmaləddin Axundovla söhbət zamanı dedi ki, məktəb kitabxanasının zəngin fonda malik olması uşaqların ürəyincədir. İllər öncə məktəb kitabxanalarının fondu məhdud sayda kitablarla komplektləşdirilirdisə, indi fonddan istənilən bədii ədəbiyyat nümunəsini və dərs vəsaitini əldə etmək olar.

Naxçıvan şəhər 17 nömrəli tam orta məktəbin foyesində təşkil edilən kitab sərgisinin önündə məktəb kitabxanaçısı Nəcibə Hüseynova ilə söhbətimiz uşaqların mütaliəyə cəlbi istiqamətində məktəbdə görülən işlər barədə oldu. Həmsöhbətim bildirdi ki, uşaqların mütaliəsində ailə, məktəb başlıca rol oynasa da, onların düzgün formalaşmasında məhz kitabxana və kitabların rolu böyükdür. Çalışırıq ki, kitabxananın imkanlarından şagirdlər maksimum istifadə etsinlər, uşaqlarda mütaliəyə güclü maraq yaransın.

Naxçıvan Qarnizonunun tam orta məktəbinin kitabxanasında isə "Kitab bilik mənbəyidir" devizi altında viktorina keçirilirdi. Viktorinada şagirdlərin fəallıq göstərməsi də diqqətimizdən yayınmadı. Viktorinadan sonra fəal mütaliəçi kimi tanınan şagirdlərdən Müşfiq Allahyarov, Aytəkin Bağırova, Fatimə Həsənzadə, Samirə Bayramlı, Rasim Məmmədli, Aysu Cəfərova və başqaları ilə söhbət etdik. Onlar məktəb kitabxanasında yaradılan şəraitdən razılıq edərək bildirdilər ki, məktəbdəki növbəti kitab sərgisində çox maraqlı kitablarla tanış olmaq imkanı əldə ediblər.

Məktəbin tarix müəllimi Ulduz Eyvazova ilə söhbətimizdə qeyd etdi ki, tarixi hadisələrin xronologiyası keçdiyi dərslərdə üstün istiqamət olsa da, hadisələrin mahiyyətini şagirdlərə aşılamaq hər zaman diqqət yetirdiyi məsələlərdən olub. Son illərdə onu da müşahidə edib ki, dərs dediyi şagirdlər tarixi romanlara daha çox üstünlük verir, tarixi hadisələrin dərinliyinə varırlar. Bu isə ona tədris prosesində çox kömək edir. Ümumiyyətlə, şagirdin mütaliəli, intellektli, dünyagörüşlü olması hər bir müəllimin köməyinə gəlir. Məktəbimizdə hər ayın axırıncı həftəsinin cümə gününün "Kitabxana günü" kimi qeyd edilməsi şagirdlərin qiraətə böyük maraq göstərməsinə səbəb olub.

Ümumiyyətlə, "Kitab bilik mənbəyidir" devizi altında məktəblərdə təşkil edilən sərgilərdə apardığımız müşahidələrdən bizdə belə bir rəy yarandı ki, son illərdə məktəblilərin mütaliəyə cəlb olunması istiqamətində görülən işlər öz bəhrələrini verməkdə, muxtar respublikada yüksək intellektə malik gənc nəsil yetişməkdədir. Bu gün muxtar respublikada şagirdlərin hərtərəfli təhsil alması, müəllim və şagirdlərin mütaliəsi üçün təhsil müəssisələrinin kitabxanalarına 627 min 643 nüsxə latın qrafikası ilə çap olunmuş bədii ədəbiyyat, jurnal və məcmuə verilib.

**Səbuhi HÜSEYNOV**

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Agentliyi üzrə 2016-cı ilin noyabr ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 1288 | 90,2 | 90,5 | 100,3 |
| 2. | Şahbuz rayonu | 518 | 36,3 | 36,4 | 100,3 |
| 3. | Kəngərli rayonu | 582 | 40,7 | 40,8 | 100,2 |
| 4. | Culfa rayonu | 1197 | 83,8 | 83,9 | 100,1 |
| 5. | Babək rayonu | 1824 | 127,7 | 127,8 | 100,1 |
| 6. | Naxçıvan şəhəri | 3635 | 254,4 | 254,5 | 100,0 |
| 7. | Şərur rayonu | 1717 | 120,2 | 120,2 | 100,0 |
| 8. | Sədərək rayonu | 300 | 21,0 | 21,0 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 27236 | 1906,5 | 1907,2 | 100,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **38297** | **2680,8** | **2682,3** | **100,1** |

**Qeyd:** Noyabr ayında texniki itki nəzərə alınmaqla daxil olan 38 milyon 297 min kilovat-saat elektrik enerjisinin dəyəri 2 milyon 680 min 800 manat olmuş, cəmi 2 milyon 682 min 300 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,1 faizini təşkil edir.

## Boks birinciliyi keçirilib

Kəngərli Rayon Gənclər və İdman İdarəsi, Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının Gənclər Birliyi və Uşaq-gənclər idman məktəbinin birgə hazırladığı tədbirlər planına uyğun olaraq, "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında rayonda fəaliyyət göstərən ümumtəhsil məktəblərinin şagirdləri arasında boks üzrə şəxsi birincilik keçirilib. Yarışdan öncə rayon Gənclər və İdman İdarəsinin rəisi Vüsal Hüseynov, Uşaq-gənclər idman məktəbinin direktoru Sarvan Məmmədov çıxış edərək yarış iştirakçılarına zərərli vərdişlərin insan orqanizmi və sağlamlığı üçün nə qədər təhlükəli olduğu haqqında geniş məlumat veriblər.

Daha sonra yarışa start verilib. Gərgin keçən görüşlərdən sonra Sinan Əbilov, Ramiz Bayramov, Hüseyn Qənbərli, Elçin İmanov, Ucal Musayev və Tural Rzayev mükafata layiq görülüblər.

Sonda qalib idmançılara təşkilatçıların diplomları təqdim olunub.

## Stolüstü tennis birinciliyinə yekun vurulub

Şərur Rayon Gənclər və İdman İdarəsi ilə Təhsil Şöbəsinin birgə təşkil etdiyi məktəblilər arasında stolüstü tennis üzrə birinciliyə yekun vurulub. Yarışda 32 idmançı mübarizə aparıb.

Yekun nəticəyə əsasən, oğlanlar arasında Nihad Qurbanlı qalib adını qazanıb. Digər iki pillədə isə Əkrəm Rəhimli və Nail Xudiyev qərarlaşıblar.

Qızların mübarizəsində isə Xurşud Mahmudova hamıdan güclü olub. Nurcan Məmmədova ikinci, Gültəkin Süleymanova isə üçüncülüklə kifayətləniblər.

Qaliblər təşkilatçılar tərəfindən diplomlarla mükafatlandırılıblar.

**Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 921